BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2011*

UOT 94 (479.24)

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ RUSİYANIN MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ ERMƏNİ AMİLİ (1813-1828-Cİ İLLƏR)

**N.C.ƏSƏDOV**
***Azərbaycan Dillər Universiteti***
***n_asadov@mail.ru***

*Gülüstan müqaviləsi nəticəsində Şimali Azərbaycanın böyük bir hissəsini, o cümlədən Qarabağ xanlığını işğal edən Rusiya burada öz müstəmləkəçilik idarə orqanlarını formalaşdırmaq üçün yerli xristianlardan və Rusiyanın işğalçılıq siyasətində müəyyən rol oynamış ermənilərdən istifadə etməyə başladı. Bu məqsədlə yaradılmış «Müsəlman əyalətləri rəisliyi»nin rəhbəri də azərbaycanlıların qatı düşməni olan V.Mədətov təyin edildi. Üzdə Rusiyanın müstəmləkəçilik maraqlarının müdafiəçisi kimi görünən V.Mədətov əslində Qarabağ ərazisində ermənilərin mövqeyini gücləndirmək siyasəti yeridirdi. Məqalədə V.Mədətovun antiazərbaycan fəaliyyətindən bəhs olunur. Eyni zamanda burada 1826-1828-ci illərdə baş vermiş II Rusiya-İran müharibəsi dövründə ermənilərin rus qoşunlarına göstərdikləri köməklik məsələsi də araşdırılır.*

**Açar sözlər:** Qarabağ, köçürmə, müqavilə, əhali, işğal

1813-cü ildə Gülüstan müqaviləsi imzalandıqdan sonra Rusiya tərəfindən ələ keçirilmiş müsəlman əyalətlərini idarə etmək üçün iqamətgahı Qarabağın mərkəzi Şuşa şəhərində yerləşən xüsusi orqan - «Müsəlman əyalətləri hakimliyi» təsis edildi. «Müsəlman əlalətləri hakimi» vəzifəsinə müsəlmanların qatı düşməni olan knyaz V.Mədətov təyin edildi [6, 212].

Azərbaycanın Qarabağ vilayətinin Tuğ kəndində doğulmuş bu erməni zabiti müsəlmanların qatı düşməni idi. O, rusların əli ilə bütün Qafqazı müsəlmanlardan təmizləmək, ən münbit torpaqlarda erməniləri yerləşdirmək fikrində idi. Onun rəhbərliyi altında Dağıstanın işğalı bunu aydın göstərmişdi. Qafqaza gəlişinin ilk ilində Qaraqaytaq, Tabasaran, Akkuşa, Qazıqumux işğal edilmişdi. V.Potto yazır ki, Yermolov Mədətovun fəaliyyətindən olduqca razı idi [16, c. II, 233].

V.Q.Mədətov əsil-nəcabətli bir nəsildən olduğunu iddia edirdi. O, çar məmurlarını aldadaraq özünü əmir oğlu kimi qələmə vermişdi. Mədətovun məlumatına görə, onun nəsli guya 1645-ci ildə II Şah Abbasın fərmanı ilə Qa-

rabağda məliklik almış Baqi adlı bir ermənidən başlayırdı [7, 127].

Mədətov Azərbaycanda müstəmləkəçilik üsul-idarəsinin yaradılmasında və möhkəmləndirilməsində xüsusi canfəşanlıq göstərirdi. O, Qarabağ hərbi dairəsinin rəisi vəzifəsinə təyin edildikdən sonra bölgədəki müsəlmanların vəziyyəti daha da ağırlaşdı. Burada sərt qaydalar tətbiq edən Mədətov kiçik bir nöqsana, səhv hərəkətə görə müsəlman əhalisinin torpaqlarını əllərindən alır, özlərini və ailələrini sürgün etdirir, həmin torpaqları ya özü mənimsəyir, yaxud da yaxın qohum-əqrəbasına bağışlayırdı. [13, 9-60].

Mədətov azərbaycanlılara qarşı xüsusilə məkrli bir siyasət yeridirdi. O, Qarabağda yaşayan yerli azərbaycanlı əhaliyə hər cür zülm edir, onları öz yurdlarından didərgin salmağa çalışırdı. Əhalinin əmlakı talanır, Qarabağ əhalisindən zorla alınmış atlar hesabına rus qoşunu atla təmin edilirdi [2, vv. 1].

Mədətov Qarabağda sakitlik yaratmaq adı ilə müsəlman əhalisinə, xüsusilə bu ərazidə yaşayan varlı müsəlman ailələrinə zülm edirdi.

Erməni generalı bölgədə əsl hakimi-mütləq idi. O, istədiyi şəxsi aradan götürmək üçün öz qohum-əqrəbasının əli ilə sui-qəsdlər hazırlayır, yalançı şahid kimi onlardan istifadə edirdi. Mədətov general Yermolov ilə yaxınlığından istifadə edərək ağlasığmaz bəd əməllər törədir, bununla da əhalidə çar üsul-idarəsinə nifrət hissi yaratmağa çalışırdı.

Əlbəttə, o dövrdə yerli əhalidə çar üsul-idarəsinə nifrət hissinin güclənməsi, qiyamçı əhval-ruhiyyənin yaranması özlüyündə mütərəqqi hadisə hesab edilməlidir. Lakin nəzərə almaq lazımdır ki, Mədətov bu əhval-ruhiyyədən istifadə edərək əhalinin Rusiya hökuməti məmurları tərəfindən cəzalandırılmasına nail olmağa çalışırdı. Bununla da öz başlıca ermənipərəst niyyətini, yəni hakimiyyət orqanlarının əli ilə Qarabağdan yerli azərbaycanlı əhalinin köçürülməsini-etnik təmizləmə siyasətini həyata keçirməyə çalışırdı. Bu siyasət Qarabağdan yerli əhalini köçürməklə gələcəkdə burada ermənilərin yerləşdirilməsi üçün zəmin hazırlamaq məqsədi güdürdü.

Görkəmli Azərbaycan mütəfəkkiri, tarixçi A.A.Bakıxanov erməni generalının bu siyasəti barədə Paskeviçə məlumat verərək bildirirdi ki, general Mədətov və onun yaxın qohumu, Qafqaz Baş İdarəsində tərcüməçi işləyən Mirzəcan Mədətov öz qarşılarına xüsusi məqsəd qoymuşlar. Onlar hər vəchlə xalqın üsyankar ruhunu oyatmağa, müsəlmanların çar üsul-idarəsinin yaratdığı qaydalara tabe olmamasına nail olmağa çalışırdılar ki, bu ərazidə əhaliyə divan tutsunlar və özlərini Rusiya hökumətinin sadiq nökəri kimi göstərib müxtəlif mükafatlar ala bilsinlər [9, 146].

Bütün bu məkrli siyasətin nəticəsi idi ki, Mədətovun özbaşınalığından cana doyan Qarabağ xanlığının sonuncu varisi Mehdiqulu xan çarizmin işğalçılıq və zorakılıq siyasəti ilə barışmayaraq 1822-ci ildə İrana qaçdı. Mehdiqulu xanın bütün varidatı, ixtiyarındakı 1000 evin əhalisi Mədətovun tabeliyinə keçdi, torpaqlarının sahəsi xeyli artdı [13, 46-49]. N.F.Dubrovinin yazdığına görə, general Yermolov və knyaz Mədətov özlərinə zəngin pay götürüb ciblərini doldurdular [11, c. I, 228].

Beləliklə, XVIII əsrin sonlarından başlanmış işğal siyasəti, 1822-ci ildə Qarabağ xanlığının ləğvi ilə başa çatdı.

Qarabağ xanlığının yüksək mənsəb sahiblərindən olan Cəfərqulu ağa isə 1823-cü ildə həbs edilərək Simbirskə sürgün edildi [13, 41].

Rusların işğal edilmiş ərazilərdə törətdikləri vəhşiliklər və həyata keçirdikləri zorakılıqlar yerli əhalidə onlara qarşı nifrət və inamsızlıq yaratmışdı. Eyni zamanda 1804-1813-cü illər Rusiya-İran müharibəsində məğlub olan İran Cənubi Qafqazın böyük bir hissəsinin itirilməsi ilə heç cür barışa bilmirdi. Rusiyaya qarşı yeni bir müharibəyə hazırlaşan İran dövləti Şimali Azərbaycanın işğal altında olan yerli əhalisinin köməyinə bel bağlayırdı. Bu dövrdə Rusiyada daxili siyasi vəziyyətin də mürəkkəb olması (1825-ci il 14 dekabr üsyanı) İranın asan qələbə qazanacağına ümid verirdi. Yaranmış siyasi vəziyyəti əlverişli hesab edən İran 1826-cı il iyulun 19-da 60 minlik qoşunla Azərbaycanın Şimal torpaqlarına hücum etdi. II Rusiya-İran müharibəsi başlandı. İran qoşunları qısa bir vaxt ərzində Rusiyanın sərhəd qoşunlarını darmadağın edərək Şuşaya qədər gəlib çıxdılar və şəhəri mühasirəyə aldılar. İran ordusunun avanqard hissəsi isə Gəncə şəhərinə daxil oldu.

Rusiya çox çətinliklə və böyük qanlar bahasına işğal etdiyi torpaqların geri alınması ilə barışa bilməzdi. O, işğalçılıq siyasətini hələ başa çatdırmamışdı. İranla müharibənin başlanması artıq Rusiyaya bu sahədə imkan və şərait yaradırdı. Odur ki, Rusiya öz işğalçılıq siyasətini davam etdirmək, ələ keçirdiyi ərazilərdə öz nüfuzunu möhkəmləndirmək məqsədilə payızdan başlayaraq Qafqaz cəbhəsinə yeni hərbi qüvvələr göndərdi. Təbiidir ki, işğalçılıq siyasətinin həyata keçirilməsində ruslar burada da ermənilərdən məharətlə istifadə edirdilər. Ayrı-ayrı erməni siyasətbazlarına böyük vədlər verən rus generalları ermənilərin müsəlmanlara qarşı nifrətini qızışdırır, onlarda yalnız Rusiyanın himayədarlığı altında öz istəklərinə nail olacaqlarına ümid yaradırdılar. Erməni siyasətbazlarının fitvasına inanan Qarabağın xristian alban əhalisi də bu dövrdə İran qoşunlarına qarşı vuruşmaqdan, onların qələbə qazanmasına hər cür maneə törətməkdən çəkinmirdilər. Məsələn, Şuşa şəhərinin Abbas Mirzənin qoşunları tərəfindən mühasirədə olduğu vaxt 1500 yerli xristian əhali də şəhərin müdafiə olunmasında ruslara yardım edirdi. Rus qoşununun mühasirədə qaldığı belə ağır bir vaxtda xristian kəndliləri taxıl və heyvan gətirir, onları ac qalmağa qoymurdular [15, 30-31]. Şuşanın müdafiəsində kapitan Mədətov, Altukyan və başqaları xüsusilə fərqlənirdilər. Polkovnik Reut general Yermolova yazırdı ki, qalanın müdafiəsində ermənilərin xidmətini xüsusi qeyd etmək lazımdır [11, 640-642].

Şəhərin müdafiəsində «erməni sənətkarları da mühüm rol oynamışdılar» [14, 32]. Rus hərbçilərinin sözlərinə görə ermənilər xeyli barıt tədarük etmişdilər [10, 101].

Qeyd etmək lazımdır ki, düzdür, Şuşa qalasının müdafiəsində ermənilər də iştirak etmişdir. Lakin istər rus, istərsə də erməni tarixşünaslığında bu barədə olan məlumatlar təhrif edilmiş şəkildə oxuculara çatdırılmışdır. Belə ki,

həm rus, həm də erməni tarixçilərinin böyük əksəriyyəti Rusiyanın işğalçılıq müharibələrində, xüsusilə Azərbaycanın Şuşa, Gəncə, Şamaxı, Naxçıvan, Irəvan kimi şəhərlərinin işğalı zamanı ermənilərin ruslara kömək göstərdiyini qabarıq verib, həddən artıq şişirtməklə, həm də onların bu yerlərdə tarixən məskunlaşması barədə yanlış fikir formalaşdırmağa çalışırlar.

İnadlı müqavimətə rast gələn İran ordusu Şuşanı 48 gün mühasirədə saxlasa da ala bilmədi. Əvəzində qələbəni təmin etmək üçün lazım olan qiymətli vaxt itirildi. Bu da səpələnmiş, məğlub olmuş, döyüş qabiliyyətini itirmiş rus ordusunun özünə gəlməsinə, toparlanmasına imkan verdi.

İran qoşunları Tiflis istiqamətində irəliləyərkən Şəmkir yaxınlığında Mədətovun başçılığı altında rus qoşunlarının müqavimətinə rast gəldilər. Mədətov 1826-cı il sentyabrın 3-də 2 minlik bir dəstə ilə İran qoşununun üzərinə hücum etdi və qalib gəldi. Bu döyüş II Rusiya-İran müharibəsində İran ordusunun Cənubi Qafqazda məğlubiyyətinin əsasını qoydu [17, 44]. Paskeviç 1826-cı il sentyabrın 10-da çara göndərdiyi raportda bu haqda məlumat verərək bildirirdi ki, döyüşdə İran ordusu böyük itki vermişdir [18, лл. 105-106].

Bu döyüşdə rus qoşununun tərkibində erməni silahlı dəstələri də çıxış edirdilər. Xüsusilə kazakların sırasında vuruşan ermənilərin fəaliyyətini general Mədətov 1826-cı il sentyabrın 10-da ali baş komandan Yermolova yazdığı raportda təqdir edirdi [5, 110].

Imperator I Nikolay Qafqazın baş hakimi Yermolova o qədər də etibar etmirdi. Yermolov dekabristlərlə əlaqə saxlamaqda şübhəli bilinirdi. Ona görə də I Nikolay öz sevimli generalı I.F.Paskeviçi onu əvəz etmək üçün Tiflisə göndərdi. Tiflisə gələn Paskeviç təcili olaraq sərəncamı altında olan ordunu toplayaraq Gəncəyə doğru irəlilədi. 1826-cı il sentyabrın 10-da Paskeviç Gəncəyə gəlib çıxdı [12, 190].

1826-cı il sentyabrın 13-də rus qoşunu hücuma keçdi. Nizami məqbərəsi istiqamətində qanlı döyüş başlandı. Bu vuruşmada iştirak edən rus qoşununun sayı 8 mindən çox deyildi. İran ordusu isə təqribən 35 min nəfər idi [5, 111]. Qüvvələr nisbətinin belə qeyri-bərabər olmasına baxmayaraq, ruslar bu döyüşdə də qalib gəldilər. Mədətov cəsədlər arasından Cavad xanın oğlu Uğurlu ağanın meyidini tapdırıb cansız cəsəddən də intiqam aldı. Uğurlu ağa və yüzlərlə vətənpərvərin meyidi döyüş meydanında yandırıldı. Ermənilər bu tapşırığı layiqincə yerinə yetirdilər [4, 39].

İran qoşunu məğlub edildikdən və vaxtilə işğal edilmiş ərazilər yenidən ələ keçirildikdən sonra ermənilər burada öz mövqelərini daha çox möhkəmləndirməyə çalışırdılar. Ermənilər bütün vasitələrə əl ataraq yerli azərbaycanlıların öz doğma torpaqlarını tərk etməsinə çalışır, eyni zamanda vaxtilə öz yurdlarını tərk etmiş azərbaycanlı əhalinin geri qayıtmasına da hər cür maneə törədirdilər. Məsələn, 1822-ci ildə İrana qaçan Qarabağ xanı Mehdiqulu xan 1827-ci ildə vətənə qayıtmaq istədikdə məlik Vanya onun qayıtmasına çox böyük maneçilik törətmişdi [8, 458-459].

Mehdiqulu xanın Qarabağdan uzaqlaşması ermənilǝri tǝmin edirdi. Odur ki, onlar xanın yenidǝn geri qayıtmasına heç cür imkan vermǝk istǝmirdilǝr.

Ermǝnilǝrin Rusiyapǝrǝst mövqeyini nǝzǝrǝ alan çarizm Türkmǝnçay müqavilǝsi imzalandıqdan sonra müstǝmlǝkǝçilik siyasǝtinin hǝyata keçirilmǝsindǝ ermǝnilǝrdǝn bir vasitǝ kimi istifadǝ etmǝk qǝrarına gǝldi. Eyni zamanda müharibǝ dövründǝ İran dövlǝtinǝ vǝ Osmanlı imperiyasına xǝyanǝt etmiş ermǝnilǝrin müharibǝ başa çatdıqdan sonra bu dövlǝtlǝrin ǝrazisindǝ yaşamaları onlar üçün arzuolunmaz idi. Buna görǝ dǝ, Rusiya imperiyası tǝrǝfindǝn ermǝnilǝrin kütlǝvi şǝkildǝ Azǝrbaycan torpaqlarına köçürülmǝsinǝ başlanıldı ki, bu da bir çox bölgǝlǝrimizdǝ, xüsusilǝ dǝ Qarabağda ǝhalinin etnik tǝrkibindǝ kǝskin dǝyişikliyǝ sǝbǝb oldu. Əgǝr XIX ǝsrin ǝvvǝllǝrindǝ Qarabağda yaşayan ǝhalinin 91%-ni azǝrbaycanlılar, 8,4%-ni isǝ ermǝnilǝr tǝşkil edirdilǝrsǝ, 1832-ci il kameral tǝsvirlǝrinin materiallarına görǝ, çarizmin köçürmǝ siyasǝti nǝticǝsindǝ burada azǝrbaycanlıların sayı 64,8%-ǝ enmiş, ermǝnilǝrin sayı isǝ 34,8%-ǝ qalxmışdı [3, 52]. 1897-ci il sayımına görǝ isǝ ermǝnilǝr artıq Qarabağ ǝhalisinin 53%-ni tǝşkil edirdilǝr. [1, 211].

## ƏDƏBİYYAT


**Azǝrbaycan dilindǝ**

1. Abdullayev M.Q. Xanlıqlar vǝ rus müstǝmlǝkǝçiliyi dövründǝ Şimali Azǝrbaycanda aqrar münasibǝtlǝr (XIX ǝsrin 40-cı illǝrinǝ qǝdǝr). Bakı: Adiloğlu, 2005, 231 s.
2. Azǝrbaycan Respublikası DTA: f. 130, siy.1, iş 10.
3. Azǝrbaycan tarixi. 7 cilddǝ, IV c., (XIX ǝsr). Bakı: Elm, 2007, 503 s.
4. Əsǝdov F., Kǝrimova S. Çarizmi Azǝrbaycana gǝtirǝnlǝr. Bakı: Gǝnclik, 1993, 140 s.
5. Kǝrimova S. Çarizmin Azǝrbaycanın işğalında vǝ müstǝmlǝkǝçiliyindǝ ermǝni siyasǝtçilǝrinin rolu. Bakı: Azǝrnǝşr, 1995, 192 s.
6. Köçǝrli T. Qarabağ (Qarabağ tarixinin saxtalaşdırılması ǝleyhinǝ). Bakı: Elm, 2002, 472 s.
7. Verdiyeva H.Y. XIX ǝsrin I yarısında Şimali Azǝrbaycan ǝhalisi. Bakı: 1993, 133 s.

**Rus dilindǝ**

8. Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Под ред. А. Берже. Т. VII, Тифлис: Типография Главного Управления Наместника Кавказа, 1878, 994 с.
9. Бакиханов А.А. Сочинения. Записки. Письма. Баку: Элм, 1983, 344 с.
10. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в северном Азербайджане. Баку: Алтай, 1999, 298 с.
11. Дубровин Н. Ф. История войны и владычества русских на Кавказе. Т. IV, СПб.: Типографи департамента удловь, 1886, 536 с.
12. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. (из военно-политической истории). М.: Наука, 1969, 287 с.
13. Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годах XIX века. (Феодальные отношения и колониальный режим). Часть I, М-Л.: АН СССР, 1936, 463 с.
14. Парсамян В.А. Грибоедов и переселение армян // Из истории вековой дружбы. Ереван: АН Арм. ССР, 1983.
15. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград: Ленингр. Ун-т, 1949, 384 с.

16. Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и литографиях. В 3-х томах, Т. III, вып. IV, СПб.: Колокольная, собственный домь, № 14, 1888, 750 с.
17. Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX-начало XX вв). Баку: АН Азерб. ССР, 1955, 295 с.
18. РГВИА, ф. Военно-ученого архива (ВУА), док. 4290

## РОЛЬ АРМЯНСКОГО ФАКТОРА В ПРОВЕДЕНИИ КОЛОНИАЛЬНОЙ ПОЛИТИКИ РОССИИ В КАРАБАХСКОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА (В 1813-1828 ГОДАХ)

**Н.Дж.АСАДОВ**

### РЕЗЮМЕ

В результате Гюлистанского договора Россия, захватив большую часть Северного Азербайджана, чтобы укрепить свои административно-управленческие правила, стала использовать армян и местных христиан в своих оккупационных целях. Руководителем «Начальства по мусульманским провинциям» был назначен именно В.Мадатов, ярый враг азербайджанцев. В.Мадатов, несмотря на свое уполномоченное положение на виду, проводил политику усиления позицию армян на территории Карабаха.

В статье обсуждается историческая антиазербайджанская деятельность В.Мадатова, а также одновременно прослеживается заслуга армян во время II русско-иранской войны в 1826-1828 годы.

**Ключевые слова:** Карабах, переселение, договор, население, оккупация.

## THE ROLE OF ARMENIANS IN THE REALIZATION OF RUSSIAN COLONIALIST POLICY IN THE GARABAGH DISTRICT OF AZERBAIJAN (IN 1813-1828 YEARS)

**N.J.ASADOV**

### SUMMARY

As a result of Gulustan Deal, Russia which had already invaded a greater part of the Nothern Azerbaijan including Garabagh Khanate, for the sake of formulating its colonizational ruling bodies began to use the local Christians, and Armenians who had played a certain role in the policy of invasion of Russia. V.Madatov, the rabid the enemy of the Azerbaijanis was appointed the leader of the organization “Moslem provinces chairmanship” established for this purpose. Pretending to be the defender of Russia’s interests in the occupied territories, he pursued the policy of strengthening the Armenians’ position in the territory of Garabagh, in fact. The article deals with V.Madatov’s anti- Azerbaijani activity and investigates the issue of Armenian’s assistance to Russia in the fight waged between Russia and Iran in 1826-1828.

**Key words:** Garabagh, deportation, agreement, population, occupation.